*Azərbaycan Respublikası*
*Vəkillər Kollegiyasının*
*sədri cənab Anar Bağırova*

*Sumqayıt şəhəri, 41-ci məhəllə, Bakı küçəsi, Yataqxana 7A ünvanında qeydiyyatda olan, faktiki Sumqayıt şəhəri, 12 mkr., Yataqxana 33, otaq 9-da yaşayan*
*Həsənova Sevda Rafiq qızı*
*(telefon: 010 712 15 87)*
*tərəfindən*

# Ə R İ Z Ə

***Hörmətli, Anar müəllim!***

Bildirmək istəyirəm ki, mən üç uşaqlı anayam, övladlarımı tək başına böyüdürəm. Keçmiş ərim Nəbiyev Şamil Kamal oğlu ilə rəsmi qaydada nikahımız pozulmuşdur. Belə ki, boşandıqdan sonra Sumqayıt Şəhər Məhkəməsinin 2(060)-12674/2016 saylı, 16.12.2016-cı il tarixli, Sumqayıt Apellyasiya Məhkəməsinin 2(060)-3509/2017 saylı, 02.11.2017-ci il tarixli Qətnamələri ilə cavabdeh Nəbiyev Şamil Kamal oğlundan hər ay hər bir uşaq üçün 117 manat sabit pul məbləğində alimentin tutularaq 03.12.2009-cu il təvəllüdlü Nəbizadə Kənan Şamil oğlunun, 20.02.2011-ci il təvəllüdlü Nəbizadə Baloğlan Şamil oğlunun və 04.01.2017-ci il təvəllüdlü Nəbizadə Uğur Şamil oğlunun yetkinlik yaşına çatanadək saxlanması üçün mənə, Nəbiyeva Sevda Rafiq qızına verilməsi qət edilmişdir.

Bildirmək istəyirəm ki, övladlarımın maddi ehtiyaclarını ödəməkdə çətinlik çəkirəm. Uşaqların böyüməsi və inflyasiya ilə əlaqədar onların ehtiyaclarını ödəmək üçün hər uşağa 117 manat aliment kifayət etmirdi. Mən, alimentin artırılması üçün məhkəməyə müraciət etməli idim. Lakin, ərizələrin yazılması, məhkəmə işini aparılması, qanunamüvafiq qaydada hansı proseslərdən keçməli olduğumu bilmədiyim üçün, hüquqi yardıma ehtiyac yaranmışdır.

Keyfiyyətli hüquqi yardım almaq üçün vəkilə ödəmək üçün kifayət qədər maddi vəsaitimin olmadığından mən Sumqayıt şəhərində yerləşən Sumqayıt Regional Vəkil Bürosuna müraciət edərək, mənə ödənişsiz ərizə yazılmasına və keyfiyyətli hüquqi yardımın göstərilməsinə dair kömək etməklərini xahiş etmişdim. Sumqayıt Regional vəkil bürosunun müdiri Anar Qasımlı ərizəmə baxaraq, işimin icraatını vəkil Vüqar Nəsirova həvalə etmişdir.

Qeyd etmək istəyirəm ki, əvvəldən sonadək mənim problemimlə maraqlanıb, ərizəmə baxılıb, məhkəmə prosesləri zamanı keyfiyyətli hüquqi yardım göstərilib və işi mənim xeyrimə apardığı üçün başda Sumqayıt Regional Vəkil bürosunun müdiri Anar Qasımlı olmaqla, büroda fəaliyyət göstərən vəkil Vüqar Nəsirova dərin minnətdalığımı bildirirəm. Ən əsas da, vəkil Vüqar Nəsirova təşəkkür edirəm. Onun peşəkarlığı, yüksək hüquqi bilikləri və məsuliyyətli yanaşması sayəsində mənim övladlarımın hüquqi məsələsi uğurla həll olundu, aliment indeksasiya oluaraq artırıldı. Həqiqətən, övladlarımın hüquqlarının qorunması istiqamətində vəkil Vüqar Nəsirovun göstərdiyi səylər üçün ürəkdən təşəkkür edir, onun və büro müdiri Anar Qasımlının gələcək fəaliyyətinidə bol yeni uğurlar və müvəffəqiyyətlər arzulayıram!

İmza: ____________ *Həsənova Sevda Rafiq qızı*

*Tarix:08.09.2025*

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3534
«12» 09 2025 il